# Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu məhkəmə-hüquq islahatları keyfiyyətcə yeni mərhələdə

**Müasir Azərbaycan dövlətinin banisi ulu öndər Heydər Əliyev rəhbərliyinin hər iki dönəmində dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimləndiyi, insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi ədalətli cəmiyyətin formalaşdırılması, idarəçilikdə demokratik ənənələrin bərqərar olması naminə misilsiz xidmətlər göstərmişdir. Cəmiyyət həyatının müxtəlif sahələrində haqq-ədalət prinsipinin qorunmasına çalışan ulu öndər yalnız bu yolla dövlətlə xalq arasında möhkəm mənəvi, siyasi və hüquqi bağlantıya, qarşılıqlı etimada nail olmağı mümkün hesab etmiş və bunu böyük əzmlə reallaşdırmışdır.**



Keçmiş Sovetlər Birliyinin iqtisadi-siyasi və ideoloji cəhətdən ən güclü dövründə belə Azərbaycana rəhbərlik etmiş Heydər Əliyev xalqımızın tarixi keçmişinin, milli adət-ənənələrimizin, dilimizin, mədəniyyətimizin təbliğini və bağlılığı gücləndirmiş, bu dövrdə yaradılan zəngin elmi və iqtisadi potensialla müstəqilliyimizə əsaslı zəmin formalaşdırmışdır. Bu gün obyektivlik hissini itirməyən tarixçilər Heydər Əliyev fenomeni ilə milli dövlətçilik ideyaları arasındakı tarixi bağlılığın köklərinin 47 il əvvələ təsadüf etdiyini bildirirlər.

İkinci minilliyin sonuncu yüzilliyi Azərbaycan üçün çox ağır və keşməkeşli bir dövr idi. XX əsrin əvvəllərində Azərbaycan Rus İmperiyasının çoxəsrlik əsarətindən qurtularaq müstəqillik əldə etdi. Lakin bu müstəqillik uzun çəkmədi. 1918-ci ilin may ayında yaradılan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aydan sonra ölkəyə Qızıl Ordunun xaincəsinə basqını ilə süqut etdi. Azərbaycan 1920-ci ildə zor gücü ilə Sovet imperiyasının tərkibinə qatıldı. Həmin dövrdə azərbaycanlılar nəinki İttifaq ərazisində, elə öz doğma yurdunda belə sıxışdırıldı, onlarla ikinci növ insanlar kimi rəftar edildi və bu proses uzun bir müddət, düz 1969-cu ilə qədər davam etdi.

1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə Heydər Əlirza oğlu Əliyev təyin edildi və elə bu hadisədən sonra azərbaycanlılara qarşı münasibət köklü surətdə dəyişdi. Məhz Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən islahatlar sayəsində Azərbaycan aqrar-sənaye respublikasından sənaye-aqrar ölkəsinə çevrildi. Respublikada aparılan genişmiqyaslı quruculuq işləri nəticəsində Azərbaycanda bir neçə il ərzində yeni yaşayış massivləri, məktəb və bağça binaları, sənaye müəssisələri tikildi, yollar salındı.

Parlaq gələcək naminə ölkəyə peşəkar kadrlar tələb olunurdu. Heydər Əliyevin gərgin səyi nəticəsində bununla bağlı minlərlə azərbaycanlı gənc elmin və təhsilin dərinliklərinə yiyələnmək üçün İttifaqın ən nüfuzlu ali məktəblərinə göndərildi. Azərbaycana sovetlər dönəmində rəhbərlik etdiyi 14 il ərzində yüzilliklər boyu əldə edilməsi mümkün olmayan nailiyyətləri gerçəkləşdirməyi bacaran Heydər Əliyevə bütün bunları həyata keçirməyə onun Vətənə, xalqa, torpağa hədsiz məhəbbət və sədaqət hissi, qurub-yaratmaq amalı səbəb olmuşdur. Sonradan Moskvada fəaliyyət göstərdiyi dövrdə də Heydər Əliyev doğma Azərbaycanını və millətini unutmamış, ölkəmizin inkişafı və çiçəklənməsi, əhalisinin rifah halının daha da yüksəlməsi üçün əlindən gələni əsirgəməmişdi.

Ümummilli liderimiz əsl vətənpərvərliklə, lider təəssübkeşliyi ilə milli müstəqilliyin qazanılmasında yaxından iştirak etmişdir. 1991-ci ilin 18 oktyabrında dövlət müstəqilliyini qazanmış Azərbaycanın sonrakı mərhələdə üzləşdiyi fəlakət və sarsıntılar, ağır sosial-iqtisadi böhran, xaos və anarxiya mühiti bir daha təsdiqlədi ki, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. 1991-1993-cü illərdə respublikamız de-yure müstəqil sayılsa da, əslində bu müstəqillik formal xarakter daşımış, xalqımız ədalətli və sivil dövlətdə yaşamaq arzusunu tam mənada gerçəkləşdirə bilməmişdir.

Həmin dövrdə müstəqilliyimizə təhdid olan ən qorxulu hadisələrdən biri də Gəncə qiyamı idi. 1993-cü ilin iyun ayında Gəncədə baş verən silahlı qiyam ölkədəki hərc-mərcliyin, anarxiya mühitinin, siyasi hakimiyyətə qarşı total inamsızlığın məntiqi nəticəsi idi. Faktiki olaraq müəyyən xarici qüvvələrin dəstəklədiyi bu silahlı qiyam respublikamızın yenicə nail olduğu dövlət müstəqilliyinə ciddi təhlükə olmaqla yanaşı, vətəndaş müharibəsinə, Azərbaycanın ayrı-ayrı bölgələrə parçalanmasına zəmin yaratmışdı.

Belə böhranlı və ağır şəraitdə Azərbaycanı sürətlə fəlakətə sürükləyən məkrli planların qarşısını almağa, düçar olduğu fəlakətlərdən qurtarmağa qadir yeganə şəxsiyyət məhz ulu öndər Heydər Əliyev idi. 1993-cü ilin iyununda ölkədə cərəyan edən təlatümlər də təsdiqlədi ki, yalnız dəmir iradəyə, fitri idarəçilik keyfiyyətlərinə, geniş siyasi dünyagörüşünə malik xarizmatik lider Azərbaycanın dövlət müstəqilliyini qorumaq, möhkəmləndirmək və yaşatmaq kimi ağır missiyanın öhdəsindən uğurla gələ bilər.

Çıxılmaz vəziyyətə düşmüş AXC-Müsavat hakimiyyətinin təkidli istəyi ilə Bakıya qayıdan ulu öndər təbiətin ona bəxş etdiyi fövqəl idarəçilik keyfiyyətlərindən məharətlə bəhrələnərək, xalqı vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən qurtardı, çağdaş tariximizə dövlətçiliyin xilaskarı, qurucusu kimi daxil oldu! Heydər Əliyev dərhal bir qrup ziyalı ilə birgə Bakıdan Gəncəyə yola düşərək baş vermiş silahlı qarşıdurmanın əsl səbəblərini araşdırdı, özünün müdrik və uzaqgörən addımları ilə bu qanlı olayların miqyasının genişlənməsinin qarşısını aldı.

Bu xilaskar missiyanın nəticəsi kimi Azərbaycan xalqı 1993-cü ilin oktyabrında ulu öndər Heydər Əliyevə etimad göstərərək onu özünün prezidenti seçmiş, müdrik liderinin rəhbərliyi altında davamlı və dönməz inkişaf yoluna qədəm qoymuşdur. Ümummilli lider cəmiyyətin bütün təbəqələrinin sosial və siyasi mənafelərini özündə ehtiva etməyə qadir, demokratikləşmə prosesinin fundamental prinsiplərinə əsaslanan, keçid dövrünün xarakterik keyfiyyətlərini nəzərə alan demokratik idarəetmə sistemini formalaşdırmaqla, əslində mükəmməl dövlət idarəçilik məktəbi yaratmışdır.

Sonrakı mərhələdən etibarən Heydər Əliyevin rəhbərliyi altında demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda atılan addımlar, milli dövlətçilik ənənələrinə, beynəlxalq standartlara əsaslanan köklü hüquq islahatları insan haqları və azadlıqlarının təminatı sahəsində əsaslı dönüşə nail olunmuşdur. Azərbaycanın perspektivdə inkişaf prioritetlərini düzgün müəyyənləşdirən ulu öndər sivil Qərb dəyərlərinin cəmiyyətdə tam mənimsənilməsinə, demokratiyanın daha möhkəm intişar tapmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatına hər zaman xüsusi diqqətlə yanaşmışdır. Heydər Əliyevin "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında" 9 avqust 1994-cü il tarixli fərmanı ilə cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirilmiş, hüquq mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyənləşdirilmişdir.

Ulu öndərin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biri də müstəqil respublikamızın ilk Konstitusiyasının yüksək demokratik meyarlar əsasında hazırlanması və ümumxalq səsverməsi yolu ilə qəbul edilməsidir. 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Konstitusiyada hakimiyyət bölgüsü prinsipləri dəqiq əksini tapmış, zamanın tələbilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə fundamental hüquqi zəmin yaradılmışdır. Əsas Qanunda təsbit olunmuş bir sıra mühüm müddəalar məhkəmə hakimiyyətinin müstəqilliyinə ciddi təminat yaratmış, bu prinsip önə çəkilməklə sonrakı mərhələdə yeni qanunvericilik aktları qəbul olunmuşdur.

1996-2003-cü illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demoktatik təsisatların təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri də BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandum olmuşdur. Həmin memoranduma əsasən BMT insan hüquqlarını dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, mülki cəmiyyətin inkişafı və digər məsələlər sahəsində Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər həyata keçirmişdir.

1998-ci il fevralında 22-də ümummilli lider Heydər Əliyev "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalamış, insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası dəqiq şəkildə müəyyən edilmişdir. İnsan hüquqları sahəsində proqram rolunu oynayan bu sənədlə insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. 1998-ci il 18 iyul tarixdə isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur.

Ümummilli liderin 1998-ci il dekabrın 1-də imzaladığı fərmanla qüvvəyə minmiş "Məhkəmələr və hakimlər haqqında" Qanun bu sahədə qanunvericiliyin müasirləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması baxımından mühüm addım olmuşdur. Hakim vəzifəsinə seçkilərin test üsulu ilə, tamamilə açıq, şəffaf, obyektiv və ədalətli prosedur əsasında keçirilməsi prinsiplərini müəyyənləşdirən qanunda məhkəmə hakimiyyətinin dövlət idarəçilik sistemində nüfuzlu, mötəbər və müstəqil təsisat kimi formalaşması məsələsinə də xüsusi diqqət ayrılmışdır. "Məhkəmələr və hakimlər haqqında" Qanuna müvafiq olaraq hakimlərin test üsulu ilə seçilməsi üçün ölkə Konstitusiyası ilə təsbit olunmuş hər üç hakimiyyət qolu ilə qarşılıqlı fəaliyyət göstərən yeni qurum—Məhkəmə Hüquq Şurası yaradılmışdır.

Şura hakim vəzifəsinə müstəqil namizədlərin seçilməsi, onların fəaliyyətinin qiymətləndirilməsi, habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri həyata keçirən müstəqil qurumdur. Şuranın hakim vəzifəsinə test üsulu ilə keçirdiyi seçkilər tamamilə azad, demokratik və şəffaf şəraitdə baş tutur, layiqli namizədlər bütün mərhələlərdən uğurla keçirlər.

Hər hansı islahat o zaman uğurlu nəticələr verir ki, onun həyata keçirilməsi zəruriliyi cəmiyyətin sosial sifarişinə çevrilsin. Tətbiq olunan yeniliklərin zamanla nə dərəcədə səsləşməsi, cəmiyyətin inkişaf tempinə adekvatlığı məsələləri həyata keçirilən mütərəqqi islahatların praktik nəticələr verməsi baxımından mühüm rol oynayır. Azərbaycanın bütün sahələrdə inkişaf etməsi, habelə insan hüquq və azadlıqları sahəsində ixtisaslaşmış digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığının yeni mərhələyə qədəm qoyması məhkəmə-hüquq islahatlarının keyfiyyətcə daha yüksək müstəvidə davam etdirilməsini vacib məsələ kimi önə çəkib.

Azərbaycan Prezidenti İlham Əliyev əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatlarını son on üç ildə yeni dövrün tələblərinə uyğun davam etdirir. Məhkəmələrin insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, ədalət mühakiməsinin tam qanunamüvafiq şəkildə həyata keçirildiyi ali instansiyaya çevrilməsinə və cəmiyyətdə yüksək etimad qazanmasına çalışan dövlət başçısı bu sahədə beynəlxalq təcrübənin mənimsənilməsi təşəbbüskarı kimi çıxış edir. Ötən müddətdə respublikada uğurla həyata keçirilən məhkəmə-hüquq islahatlarının qayəsində insanpərvərlik, humanizm, şəxsiyyətə hörmət, vətəndaşa həssas münasibət kimi ali dəyərlər dayanmışdır.

Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsü əsasında hələ 2004-cü ilin dekabrında "Məhkəmə-Hüquq Şurası haqqında" yeni qanun qəbul olunmuş, "Məhkəmələr və hakimlər haqqında" qanuna bir sıra mütərəqqi dəyişikliklər edilmişdir. "Konstitusiya Məhkəməsi haqqında Qanuna əlavə və dəyişikliklər haqqında" 23 dekabr 2003-cü il tarixli qanuna əsasən isə vətəndaşların pozulmuş hüquq və azadlıqlarının bərpası ilə bağlı birbaşa Konstitusiya Məhkəməsinə müraciət etməsi hüququnun həyata keçirilməsi mexanizmləri müəyyən edilmişdir. İnsanların mühüm hüquqlarından sayılan mənzil toxunalmazlığı, yaxın qohumlara qarşı ifadə verməməyə görə məsuliyyətə cəlb edilməmə, məhkumun xüsusi mülkiyyətindəki əmlakının hamısının məcburi qaydada əvəzsiz olaraq müsadirə edilə bilməməsi haqqında olan qərarlar bu sırada böyük əhəmiyyət kəsb edir.

Dövlət başçısının tapşırığı əsasında ölkədə korrupsiyaya qarşı mübarizə tədbirləri gücləndirilmiş, bu istiqamətdə bir sıra mühüm qanunlar qəbul olunmuşdur. 2004-cü il yanvarın 13-də Milli Məclisdə qəbul edilmiş "Korrupsiyaya qarşı mübarizə haqqında" qanunda korrupsiya ilə mübarizə üzrə dövlətin strateji kursunun əsasları müəyyən edilmiş, habelə korrupsiya cinayətlərinin mahiyyəti və onlarla mübarizənin hüquqi əsasları müəyyən olunmuşdur.

Son dövrlərə qədər məhkəmələrdə hakimlərin sayca azlığı səbəbindən bəzən baxılan işlər üzrə araşdırmalar səthi olmuş, vaxtın azlığı tam və obyektiv tədqiqata imkan verməmişdir. Azərbaycan Prezidenti İlham Əliyev bu reallığı nəzərə alaraq 17 avqust 2006-cı il tarixli "Azərbaycan Respublikası məhkəmələri hakimlərinin sayının artırılması və məhkəmələrin ərazi yurisdiksiyasının müəyyən edilməsi haqqında" fərmanı imzalanmış və respublika məhkəmələri hakimlərinin sayı 153 ştat artırılmışdır. Fərmanın icrası ilə bağlı Məhkəmə-Hüquq Şurası tərəfindən həyata keçirilən tədbirlər hakim vəzifəsinə seçkilərin tamamilə azad və ədalətli keçirilməsinə, bu məsul vəzifəyə ən layiqli insanların seçilməsinə xidmət etmişdir. 2010-cu ildə regionlarda və paytaxtda yeni məhkəmələrin yaradılması, həmçinin, məhkəmələrdə hakimlərin sayının artırılması istiqamətində mühüm addımlar atılmışdır. Məhkəmələrdə iş yükünün çoxluğu nəzərə alınaraq Məhkəmə-Hüquq Şurasının təklifi ilə həmin ildən hakimlərin sayı 25 faiz, məhkəmə aparatı işçilərinin sayı isə 60 faizədək artırılmış, hər bir hakim üçün əlavə köməkçi ştatı təsis olunmuşdur.

Dövlət başçısı İlham Əliyevin 2010-cu il 22 iyun tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər və "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Qanunu xüsusi qeyd etmək lazımdır. Qanunla yerli iqtisad məhkəmələrinin bazasında inzibati-iqtisadi məhkəmələr yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 iyul tarixli "Azərbaycan Respublikasının məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər və "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 22 iyun tarixli 1043-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" fərmanına əsasən, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi əsasında Bakı Ağır Cinayətlər Məhkəməsi, habelə Lənkəran, Gəncə, Şəki ağır cinayətlər məhkəmələri yaradılmışdır.

Fərmanla həmçinin, 1 və 2 saylı Bakı, Gəncə, Sumqayıt, Şəki, habelə Naxçıvan iqtisad məhkəmələrinin bazasında inzibati-iqtisadi məhkəmələr yaradılmış, onların sədrləri və hakimləri təyin olunmuşlar. 2011-ci il yanvarın 1-dən iqtisadi, inzibati işlərə məhz yeni yaradılmış inzibati-iqtisadi məhkəmələrdə baxılır. Bu isə iqtisadi xarakterli mübahisələrin ixtisaslaşmış birinci məhkəmə instansiyasında tam, ədalətli, obyektiv araşdırılmasına, qanunamüvafiq şəkildə baxılmasına, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət edir.

Müstəqilliyimizin bərpasının 25-ci ildönümü ərəfəsində Azərbaycan ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yolla irəliləyir, ümumbəşəri dəyərlərə əsaslanaraq insan hüquq və azadlıqlarının təminatı, demokratikləşmə sahəsində yeni-yeni uğurlara imza atır. Dövlət başçısı İlham Əliyev Azərbaycanın sosial-iqtisadi inkişafı ilə paralel aparılan məhkəmə-hüquq islahatlarını bir-birindən təcrid olunmuş şəkildə götürmədən hər iki xətti Azərbaycanın gələcək yüksəlişinin vahid istinad nöqtəsi kimi əsaslandırır. Azərbaycanın bugünkü dinamik iqtisadi inkişafı isə deməyə əsas verir ki, respublikamız yaxın gələcəkdə insan və vətəndaş hüquq və azadlıqlarının təminatı sahəsində ən qabaqcıl dövlətlərdən birinə çevriləcəkdir.

**Lətifə MƏMMƏDOVA,**
**Sumqayıt Apelyasiya Məhkəməsinin hakimi.**